# Boks yığmamızın ilk "qızıl"ı

## Avropa Oyunlarında Azərbaycana 15-ci qızıl medalı qazandıran Teymur Məmmədova mükafatı Prezident İlham Əliyev təqdim edib

**Bakı-2015 I Avropa Oyunlarında boks yarışlarında yarımfinal mərhələsi davam edib, eyni zamanda, final görüşlərinə start verilib. Apasport.az saytının məlumatına görə, dünən gün ərzində 10 çəkidə döyüşlər baş tutub.**

Bu çəki dərəcələrinin 5-də finala vəsiqə qazananların adları bilinib. Yarımfinal görüşlərindən sonra 2 Azərbaycan boksçusu bu hüquqa yiyələndiyi halda, digər ikisi bürünc medalla kifayətlənib.

Günün uğuru final qarşılaşması da gəlib. 81 kq çəki dərəcəsində rinqə çıxan Teymur Məmmədov həlledici görüşdə qalib gələrək boks yığmamıza ilk qızıl medalı qazandırıb.

Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri arenada final oyununu izləyiblər. Qaliblərin mükafatlandırılması mərasimində medalları idmançılara Prezident İlham Əliyev təqdim edib. Birinci Avropa Oyunlarının çempionunun şərəfinə Azərbaycanın dövlət himni səsləndirilib, dövlət bayrağı ucaldılıb.



**Kişilər**
**Yarımfinallar**
**52 kq**

Ardıcıl iki rəqibini məğlub edərək yarımfinala qədər irəliləyən Elvin Məmişzadə final yolunda son görüşündə də inamlı qələbə qazanıb. Yeniyetmələr və gənclər arasında Avropa çempionumuz almaniyalı Hamza Tubaya qalib gələrək finala vəsiqə qazanan ikinci boksçumuz olub. O, çempionluq üçün italiyalı Viçenzo Rikardi ilə döyüşəcək. Qarşılaşma sabah saat 18:45-də olacaq.

**64 kq**

Üç inamlı qələbə sayəsində yarımfinala yüksələn Lorenzo Sotomayor bu mərhələdə Ukrayna təmsilçisinə rəqib olub. Viktor Petrovla qarşılaşan boksçumuz onu məğlub etməkdə ciddi çətinlik çəkməyib. Hər 3 raundu asanlıqla aktivinə yazan Sotomayor həlledici döyüşdə iştirak hüququ qazanıb. Kuba əsilli idmançımız finalda italiyalı Vinçenzo Manqiakapre ilə üzüzə gələcək. Qarşılaşma bu gün saat 19:15-də olacaq.

**+91 kq**

Avropa Oyunlarında qızıl medal qazanacağına ən çox ümid bəslənilən Məhəmmədrəsul Məcidov yarımfinalda özündən 7 yaş kiçik Qasan Gimbatovla (Rusiya) qarşılaşmalı olsa da, döyüş baş tutmayıb. İkiqat dünya və Avropa çempionumuz ağır zədə səbəbindən qarşılaşmaya çıxmayıb və bürünc medal alması rəsmiləşib. Gimbatov isə mübarizəsiz finala yüksəlib.

**Final**
**81 kq**

İlk 4 döyüşündə rəqib tanımayan, yarımfinalda rusiyalı Pavel Silyaginə çətin anlar yaşadan Olimpiya Oyunlarının bürünc mükafatçısı, Avropa çempionu və dünya ikincisi Teymur Məmmədov həlledici görüşdə italiyalı Valentino Manfredoniaya da gücünü göstərib. O, çempionluq döyüşünü də aktivinə yazmaqda ciddi müqavimətlə üzləşməyib. Manfredonianı 3:0 (30:27; 30:27; 30:27) hesabı ilə məğlub edən Məmmədov fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Bu, yığmamızın 15-ci "qızıl"ı, ümumilikdə isə ölkəmizin 44-cü mükafatı olub.

**Qadınlar**
**54 kq**

Yığmamızın liderlərindən Anna Əlimərdanova Avropa Oyunlarında ikinci döyüşünə çıxıb. Boksçumuz yarımfinalda Rusiya idmançısı Yelena Savelevaya ilə qarşılaşıb. Gərgin keçən döyüş rəqibin qələbəsi ilə başa çatıb - 3:0 (40:36; 39:37; 40:36). Əlimərdanova yarımfinalda mübarizəni dayandırdığından bürünc medalla kifayətlənib. Bu, boks komandamızın 2-ci, yığmamızın 41-ci mükafatı olub.

Qeyd edək ki, boks yığmamıza bir gün öncə Tayfur Əliyev (56 kq) də 1 bürünc medal qazandırıb.